# AMEA-da "Azərbaycan dilinin təmizliyi: milli əmanətin qorunması uğrunda səfərbərlik" mövzusunda ictimai müzakirə

**Yanvarın 9-da AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Akademiyanın və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan dilinin təmizliyi: milli əmanətin qorunması uğrunda səfərbərlik" mövzusunda ictimai müzakirə keçirilib.**



Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan dilinin saflığının qorunması istiqamətindəki çıxışından irəli gələn vəzifələr geniş müzakirə olunub.

Mərasimdə QHT rəsmiləri, tanınmış alim və ziyalılar, elm və təhsil müəssisələrinin əməkdaşları, tələbələr, təşkilat və vətəndaş cəmiyyətinin nümayəndələri, KİV mənsubları iştirak ediblər.

Əvvəlcə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədr müavini Elnur Bağırlı çıxış edərək Prezident İlham Əliyevin Azərbaycan dilinə xüsusi diqqət göstərdiyini vurğulayıb. Bildirib ki, dövlət başçısı AMEA-nın 80 illik yubileyindəki çıxışında və yerli televiziya kanallarına verdiyi müsahibəsində ana dilinin qorunmasını milli təhlükəsizlik, milli kimlik və dövlətçilik məsələsi kimi dəyərləndirib. Ölkə Prezidenti Azərbaycan dilini yalnız ünsiyyət vasitəsi kimi deyil, əsrlərin tarixi yaddaşını, milli-mənəvi dəyərləri və mədəni irsi özündə birləşdirən strateji milli sərvət kimi qiymətləndirib.

Sonra çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bugünkü ictimai müzakirənin QHT ilə birgə keçirilən ilk tədbir kimi xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Keçmiş SSRİ-yə daxil olan xalqların dilləri içərisində Azərbaycan dilinin ədəbi dil normaları baxımından öz varlığını daha çox qoruyub saxladığını söyləyən AMEA prezidenti vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin o zaman apardığı Azərbaycançılıq siyasəti, Azərbaycan dilinə yanaşması, onun işləkliyi yönündə həyata keçirdiyi kompleks tədbirlər dilimizin inkişaf etdirilməsinə, qorunub saxlanılmasına öz böyük təsirini göstərmişdir. O, müstəqillik dövründə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dilinin beynəlxalq miqyasda təbliği istiqamətində mühüm addımların atıldığını, Ümummilli Liderin milli dil siyasətinin uğurla davam etdirildiyini bildirib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, dövlətçilik tarixində Azərbaycançılıq ideologiyası ardıcıl, davamlı və dayanıqlı mövqeyə malikdir. Prezident İlham Əliyevin həyata keçirdiyi Azərbaycançılıq siyasətinin əsas sütunlarından biri məhz Azərbaycan dili siyasətidir. Dövlət başçısının müstəqil dövlətçilik və Ana Vətən konsepsiyasının mühüm tərkib hissələrindən biri də Azərbaycan dilinin qorunması, inkişaf etdirilməsi və cəmiyyətin bütün sahələrində mövqeyinin möhkəmləndirilməsi ilə bağlı qarşıda duran vəzifələrdir.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin 2026-cı ilin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın beynəlxalq mövqeyi, qlobal proseslərdə yeri və həyata keçirilən islahatlar haqqında danışarkən Azərbaycan dili məsələsinə ayrıca toxunması dilimizin dövlət siyasətində tutduğu mühüm mövqeyi aydın şəkildə nümayiş etdirir. Ölkə başçısı əvvəlki çıxışlarında da Azərbaycan dilinin saflığının qorunmasına xüsusi həssaslıqla yanaşmış, bu sahədə görülməli olan işləri ictimaiyyətin diqqətinə çatdırmışdır: "Bu baxımdan Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində Azərbaycan dili ilə bağlı səsləndirdiyi fikirlər, qərar və tapşırıqlar ölkənin ümumi inkişaf strategiyasının tərkib hissəsi olmaqla yanaşı, dil siyasətinin əsas və prioritet istiqamətlərindən biridir".

"Azərbaycan dili siyasəti ana torpaq, ana Vətən siyasətinin ana qollarından biridir. Bu səbəbdən də Prezident İlham Əliyevin ana dilinin qorunması uğrundakı mübarizəsi ana Vətən uğrunda mübarizənin əsas istiqamətlərindəndir", - deyə bildirən akademik İsa Həbibbəyli ölkə başçısının müsahibəsində Azərbaycan dilinin tarixi, müasir durumu və gələcək perspektivləri ilə bağlı mühüm məqamlara toxunduğunu, dilimizin saflığının qorunmasını milli təhlükəsizlik məsələsi kimi dəyərləndirdiyini vurğulayıb.

O, cənab Prezidentin AMEA-nın 80 illik yubiley tədbirindəki parlaq nitqində, eləcə də yerli televiziya kanallarına verdiyi dərin məzmunlu müsahibəsində Azərbaycan dilinin özünəməxsusluğu, zənginliyi, qüdrəti, dünya dilləri içərisindəki yeri və mövqeyinə yenidən aydın, siyasi-elmi baxış gətirdiyini vurğulayıb. Qeyd edib ki, ölkə başçısının təqdimatı ilə Azərbaycan dili 50 milyonluq böyük bir xalqın dilidir və bu dili qorumaq 50 milyonluq xalqın dilini, taleyini, milli-mənəvi varlığını qorumaq deməkdir.

Akademik İsa Həbibbəyli Dilçilik İnstitutunun birbaşa dil məsələləri ilə məşğul olduğunu, eyni zamanda, Humanitar və İctimai Elmləri təmsil edən digər müəssisələrdə də bu istiqamətdə fəaliyyətin davam etdirildiyini söyləyib.

O, AMEA Rəyasət Heyətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan dilinin saflığının qorunması istiqamətindəki çağırışlarına həsr olunmuş müşavirənin keçirildiyini bildirib. Eləcə də Rəyasət Heyətinin dünənki iclasında ölkə başçısının müsahibəsində elmin inkişafı ilə əlaqədar çağırışları və Milli Elmlər Akademiyasının vəzifələrinə dair geniş müzakirələrin aparıldığını, müvafiq qərarların qəbul edildiyini diqqətə çatdırıb. AMEA rəhbəri ana dilinin qorunub saxlanılması, mövqeyinin möhkəmləndirilməsi və daxili imkanlar hesabına zənginləşdirilməsi yollarının elmi cəhətdən müəyyənləşdirilməsinin alimlərin müqəddəs vəzifəsi olduğunu söyləyib. O, Azərbaycan dilinin saflığının qorunması istiqamətində AMEA-da həyata keçirilmiş işləri nəzərə çatdıraraq, Dilçilik İnstitutunda daxili imkanlar hesabına "Müasir Azərbaycan dili" şöbəsinin bazasında "Müasir Azərbaycan dili və nitq mədəniyyəti" şöbəsinin yaradılacağını söyləyib. Bundan əlavə, Orfoqrafiya və Orfoepiya lüğətlərinin hazırlandığını, ilk dəfə olaraq dil korpusu üzərində sistemli işin aparıldığını, terminoloji lüğətlərin rəqəmsallaşdırıldığını, müasir dövrdə geniş istifadə üçün onlayn lüğətlərin yaradıldığını, ədəbi dil normalarının nəzəriyyə və qrammatika ilə yanaşı, tətbiq imkanlarının hazırlandığını bildirib. Akademik İsa Həbibbəyli, həmçinin ali təhsil müəssisələrinin Filologiya fakültələrində "Nitq mədəniyyəti" fənninin yenidən tədris edilməsinin zəruriliyini vurğulayıb.

Daha sonra çıxış edən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri professor Fuad Məmmədov bildirib ki, biz Cənab Prezidentin dilimizin qorunması və inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələri həyata keçirərək dilimizin inkişafına töhfə verməli, səylərimizi birləşdirərək milli mədəniyyətimizi daha da yüksəltməliyik.

O, milli mədəniyyətimiz və kimliyimizin qorunub saxlanması üçün Azərbaycan dilinin hərtərəfli inkişafının son dərəcə vacib olduğunu qeyd edib. Eyni zamanda, Azərbaycan xalqının həyat keyfiyyətinin, rəqabət qabiliyyətinin yüksəldilməsi və dövlətimizin güclənməsinə xidmət edən əqli, yəni intellektual və mədəni inkişafın müasir dövrün tələbi olduğunu bildirib.

Daha sonra "Azərbaycan dilinin saflığı, işləkliyi və nüfuzu: vətəndaşlıq borcu, strateji məsuliyyət", "Dil - milli əmanət kimi", "Mediada dil, üslub qüsurları: QHT adlarına yenidən baxış", "Efir məkanında dil saflığı" və "Xaricdə yaşayan azərbaycanlılar üçün Azərbaycan dili dərsləri" mövzusunda məruzələr dinlənilib, müzakirələr aparılıb.